*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 25-35*

https://doi.org/10.62837/2024.10.25

**SEVDA MURADXAN QIZI SADIQOVA**
**Bakı Dövlət Universitet**
**Akademik Zahid Xəlilov küçəsi 23**
**sevda.mcabbar@yahoo.com**

# "QORXU" KONSEPTİNİN VERBALLAŞMASI PSİXOLOJİ VƏ LİNQVİSTİK MÜSTƏVİDƏ

**Xülasə**

Dünya mənzərəsini əks etdirən maddi və mental əsaslı anlayışların, onların ifadə vahidlərinin ədəbi nümunələr əsasında linqvopsixoloji tədqiqi insan və dünya konseptlərini qarşılıqlı əlaqədə, düşüncə ilə dilin vəhdətində öyrənməyə imkan verir. Bu, konsept və onun verballaşmasının tədqiqat istiqamətini müəyyənləşdirir, konseptual-linqvistik-koqnitiv tamlıq yaradır. İnsan və dünyanın mahiyyətini dil müstəvisində açan, onların qarşılıqlı münasibətlərindən formalaşan, insanın həyat tərzinə təsir göstərən anlayışlardan biri də qorxudur. Məqalədə qorxu anlayışının psixoloji əsaslarına nəzər salınır, onu formalaşdıran ekstra və intra təsirlərə toxunulur. Konseptin verbalizasiyası türk yazılı nümunələrində araşdırılır, milli və alınma mənşəli leksemlərin sinonim cərgəsi, mətn funksionallığı nümunələr əsasında təqdim edilir. Məqalədə dil faktları müstəvisində qorxu konseptinin linqvopoetik təqdiminə də yer verilir.

**Açar sözlər: münasibət, konsept, psixoloji əsas , linqvistik faktlar, qorxu**

**Giriş.** İnsan və dünyanın qarşılıqlı əlaqəsindən formalaşan, münasibət anlayışı ilə bilavasitə bağlı olub bütün qarşılıqlı əlaqə və münasibətlərdə yeri olan anlayışlardan biri qorxudur. Qorxu insan şüurunda hər zaman situativ və ya sabit şəkildə mövcud olan, fərqli təsirlərlə aktivləşən zehni-bioloji-fiziki prosesdir. Qorxunun səbəbləri müxtəlif, nəticəsi isə göstərilən reaksiya və yaşanan emosionallıq baxımından oxşar ola bilir: insan təbiətdən qorxur, insan insandan qorxur, insan cəmiyyətdən qorxur, insan dünyadan qorxur, insan tanrıdan qorxur. Qorxduğu an emosional, fiziki, bioloji cavab reaksiyası verir: qaçır, titrəyir, ağlayır, qışqırır, danışır və s. Qorxu konsepti psixologiya və linqvistikanın vəhdətində tədqiq olunur, belə ki, psixologiya mental sistemdə qorxunun yeri, yaranma səbəbləri, təzahür formalarını araşdırır, bütün bunların dildə müəyyənləşməsi, təqdimi isə dilçiliyin üzərinə düşür. Konseptin verballaşmasının vahid psixolinqvistik müstəvidə araşdırılması xüsusi əhəmiyyət daşıyır.

**Konseptin psixoloji əsası**. Qorxu insanın onu əhatə edən real aləmə, hadisə, situasiyalara qarşı hiss və duyğu şəklində cavab reaksiyası, emosional yaşantısı, eyni zamanda özünümüdafiə hərəkətindən ibarət davranış fəallığıdır. Psixoloji aspektən qorxu insanın mental sistemində, şüur və şüuraltında toplanan, onu əhatə edən hadisə, münasibət və düşüncələrin zəncirvari silsiləsindən müəyyənləşir. Deməli,

qorxu, insan təcrübəsinin ayrılmaz hissəsi kimi fərdi və sosial səviyyədə müşahidə olunan, psixoloji və linqvistik əsaslı konseptdir. Qorxu hissi insan davranışını, düşüncəsini və münasibətlərini formalaşdıran əsas psixoloji faktorlardan biridir. Bu səbəbdən maddi-mənəvi varlıq olan insanın həyat fəaliyyətinə təsir edəcək gücə malikdir: insan qorxduqda dili tutula bilər, iflic ola bilər, depressiyaya düşür, iş qabiliyyətini itirə bilir, başqalarına zərər verə bilər, insanlarla ünsiyyətdə çətinlik çəkir, sağlamlığını itirər və s. Deməli, qorxu insan varlığının bütün fəaliyyət sahələrinə siraət edən zehni-emosional yaşantı, hiss və duyğu halıdır. Ətraf aləmlə təmas nəticəsində müəyyənləşən, insanın bildiyi və bilmədiyi informasiyaların məcmusundan qaynaqlanan qorxu hissi onun real həyatına mental, bioloji, fiziki olaraq təsir göstərir, müxtəlif yönlərdən idarəedici funksiyaya malik olur. Şüur və şüuraltında iformasiyal şəklində cəmlənən qorxu, düşüncə olaraq hər hansı zahiri və ya daxili təsir nəticəsində aktivləşdiyi zaman real həyat faktlarına və nitq prosesinə müdaxilə edir. Dünya dualitadan ibarətdir və dünya yaşantısı kimi qorxu da dualitaya aid olub münasibətlər sistemində pozitiv və neqativ tərəfləri ilə müəyyənləşir, insanı müsbət və ya mənfi hərəkətlərə sövq edir, seçimlər etməyə yönləndirir: qorxduğu zaman insan müsbət və ya mənfi rəftar, davranış nümayiş etdirə bilir. Qorxu yaşantısına səbəb olan **təsirləri** şərti şəkildə iki qrupa ayırmaq olar: ekstra təsirlər, fiziki-intellektual və ya inter təsirlər. Birinci qrupa insanın yaşadığı coğrafi şərait, ailə, ictimai mühit, sosial status və s. kimi **şərtlər** daxildir; ikinci qrup təsiredici amillər qrupunda isə əqli-intellektual səviyyə, mənəvi-ruhi keyfiyyətlər, fərdi xarakter və xüsusiyyətlər qaynaqlanır. Konseptual səviyyədə qorxu çoxməzmunludur, dünya və insan anlayışları çərçivəsində həyatın bütün sahələrini əhatə edir. Qorxunun mahiyyətini, əqli-psixoloji əsasını N.Gəncəvi "Sirlər xəzinəsi" əsərində belə açıqlayır:

Ayağı yalın **vəhm çox yollar dolaşdı**,
Amma onun qapısından əliboş qayıtdı ;
O vəhm çox yolları getdi. Onun **mahiyyətini tapmadı**;
**Əql** ortaya çıxıb (dedi): "Mən vəhmi çağırıb
Ədəbsizliyinə görə onu **tənbeh etdim**"

Tərcümə olunan tənqidi mətndə qorxu *ayaqyalın* təyini ilə təqdim edilir. Vahimənin Allahın qapısından əliboş qayıtması, əqlin onu ədəbsizlikdə tənbeh etməsi"nin batini mənasında qorxunun insanı tanrıdan uzaqlaşdıran vasitə olması, yaradanı qorxu ilə dərk etmənin mümkünsüzlüyü ideyası dayanır və idrakla, dərklə ondan azad olma yolu göstərilir. Ağılın vəhmi tənbeh etməsi qorxu hissindən ağıl, dərk vasitəsilə azad olmaq anlamına gəlir. Şüurlu şəkildə qoxu yaradan obyekt, subyekt və hadisənin üzərinə getmək, hətta "ana qorxu" olan ölümün gözünə dik baxmaq və s. türk əxlaq sisteminin əsasında dayanan keyfiyyətdir: qorxususluq alp, igid insan obrazını təyin edir(19, 274).

Müasir dövrdə fərqli psixoloji təlimlərdə insanın həyatında vacib faktor olan qorxu hissi üzərində müxtəlif araşdırmalar aparılır, qorxu hissinin mental düşüncə və real yaşantıda fiziki-mənəvi təsirindən bəhs edilir, insan həyatına mənfi təsirindən azad olma yolları öyrənilir. XX əsr poeziyasında B.Vahabzadə qorxunun situativ-psixoloji şəkildə yaranması və təsiri ilə bağlı əsas məqamları bədii, poetik formada belə təqdim edir: *Mən oddan qorxmadım yanana qədər; Mən qorxu bilmədim qanana qədər. Elə ki, yandım Odla oynamaqdan qorxdum, dayandım. Başlandı qorxu - Başlandı ehtiyat - Başlandı həyat. (22*,169). *Qorxu bizim dilimizdə kilid olur, Beynimizdə qıfil olur. Dərd budur ki, bu dərdi də, Biz qanırıq, biz bilirik. Qorxa-qorxa Özümüz də özümüzçün Biz qorxuya çevrilirik (*22,236)

**Konseptin lunqvistik təzahürü**. Fərqli və müxtəlif münasibətləri əks etdirən qorxu konsepti mürəkkəb psixoloji, emosional proseslər əsasında formalaşır, geniş struktur-semantik tərkibdə anlayışlar toplusunu, konseptsferanı yaradır. Bu isə konseptin verballaşmasında nitq vahidlərinin leksik-semantik genişlənməsinə, ifadə zənginliyinə səbəb olur. Qorxu ilə bağlı dil vahidlərinin semantik sahələri konseptual çərçivədə birləşərək dünyanın dil mənzərəsindəki insan konseptinin bir çox aspektdən təqdiminə, daxili mahiyyətinin daha dərindən açılmasına xidmət edir. Nəticədə, qorxu insanın psixoloji vəziyyətini, mədəniyyətini və dünyagörüşünü əks etdirən kompleks bir konsept olaraq ortaya çıxır: *ölüm/ yox olma qorxusu, itki /itirmə qorxusu, günah/ günahlandırılma qorxusu, sevgi /sevgisizlik qorxusu, yalan/aldadılma qorxusu, təklik/yalnızlıq qorxusu, ayrılıq, həsrət, gərəksizlik, dəyərsizlik, çarəsizlik qorxuları* və s.. Bu vahidlərin hə biri anlayış olaraq qorxu konseptinin semantik strukturunu təşkil edir, eyni zamanda müstəqil konseptlər şəklində tədqiqata cəlb edilir.

"Qorxu" anlayışının əsas leksik vahidi bütün türk dillərində kiçik fonetik dəyişmələrlə "qorxu" sözüdür: *qorxu*(Az), *korku*(Turk), *kurkıv*(başqırt), *korkuv, ürey*(qazax), *korkü*(qırğız), *korkuv*-(özbək), *kurku*(tatar), *gorkı*(türkməm), *korkuş*(uyğur). (10, 500-501) Qorxu sözü bu anlayışın ümumi-konkret ifadə vahididir, lakin eyni zamanda ayrı-ayrı türk dillərində alınma mənşəli vahidlər də ifadə vasitəsi olaraq işləkdir. Azərbaycan və digər türk dillərində alınma mənşəli sinonim cərgədən ibarət leksik dil faktları konseptin ifadə vahidi olaraq işlənir: *hürkü, urkü, həyəcan, təlaş, dəhşət, eyman, vahimə,vəhm, xof/hovf ; endişe, vahşet, ürpermek, perva ;* özbək dilində *ḳörḳuv, ḩävf, dahşat, mudhiş, bim (*16, 148,102,107, 171) *və s.*.Alınma vahidlər içərisində farsdilindən keçmə "bim", "pərva" sözləri arxaikləşmiş, digər vahidlər müasir türk dillərində bu və ya digər şəkildə işləkliyini saxlayır.

Azərbaycan dilində milli mənşəli, əsasən də heyvanlarla bağlı olan *hürkmək, hürkütmək*, eləcə də *eyman* leksik vahidi, onun *eymənmək* şəkli qorxu, narahatlıq yaratmaq mənasında işlənir. Müasir Azərbaycan və türk dilində Avropa mənşəli *fobiya, panika* terminləri də semantikası ilə qorxu anlayışına uyğun gəlir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 25-35*

Qorxu anlayışının dildə ifadə vahidləri **maddi** (qaranlıq, daşğın, fəlakət, zəlzələ, vəhşi heyvan, soyuq, ağrıı, xəstəlik və s. qorxmaq ), **zehni-fikri**(düşüncənin fantaziyasından(gerçək əsası olmadan), ölüm, yoxluq, boşluq, bilinməyən, görünməyən və s. qorxmaq) və **emosional duyğu** əsaslı (ayrılıq, həsrət, inciklik, küskünlük, biganəlik və s qorxmaq) olur.

Türkmənşəli "qorxu" sözü XI-XVI əsrlər türk dilli yazı nümunələrində "korku" şəklində sabitləşmiş, müasir türk dillərində də konseptin əsas ifadə vahidi kimi fəaldır, aparıcı və nüvə söz səciyyəsindədir:

*Baka tursa artuk anın* ***korku*** *tur*
*Kalı* ***korkmasa*** *sen küçün* ***korkıtu*** ( 24,42)
Bakadursa artık ondan **korkadur**
Eğer **korkmazsan** o seni gücüyle **korkutu**r(23,80)

Sənə çox baxarsa ondan qorx; əgər qorxmazsan, o səni gücü ilə qorxudur(qorxmağa məcbur edər)(S.Sadıqova)

*Bilik bilti boltı eren belgülük*
*Biliksiz tirikle yitük* ***körkülük*** (17,155);

*Овучлаб Аҳраман қўрқунчидин жон*
*Ва лекин жондин ул ҳолатда ранжон* (2.167);
*Алардин сўнг салотин торти таъзим*
*Ки, бергайлар алар уммид ила* ***бим***(2.52);

*Hakdan* ***korkup*** *otka tü mey pitim men* (7,8);
*Satarım canımı hiç kimse almaz*
*Âşık bir kişidir bu dünya malın*
*Âhıret* ***korkusun*** *bir pula saymaz*
*Bu dünyâ ol âhiretten içeri* (4, 277);
*Alem çırâkdur sadır gönlüm bunı gözedür*
*Nideyüm Hak* ***korkusı*** *hergiz içümden gitmez(4,* 92);

*Qül Allahümmə malik çün mana tə'vizi-hirz oldu,*
*Xilas oldum* ***yüvəsvisdən****, gedir sən də bu* ***vəsvası.***
*Bu gün-fərdadan, ey vaiz, məni* ***qorxutma****, əbsəm dur*
*Ki,* ***qorxusuzdur*** *ol arif ki, imruz oldu fərdası.* (9, 52);

*Gör ol salusü məhrumu, məni zöhd ilə* ***qorxudur,***
*Sanasan kəndi dün gəlmiş bərat ilə cəhənnəmdən.* (9, 70);
*Nəfsini bilməyən bu dəm* ***qorxu*** *nədir nə bilsin ol,*
*Kəndözünü bilənlərə sud nədir, xətər nədir*? (9, 70);

*Demiş hər qönçəyə aşiqligim razın səba derlər,*
*El ağızın tutmaq olmaz,* **qorxuram***, ey gül, sana derlər(14,112);*

*Dəhanından əsər görmən, miyanından nişan,* ***vəh*** *kimi*
*Məni-nakamə ömrümdən müyəssər hiç kam olmaz(14,*142).

Konseptin əsas-nüvə leksemi olan "kork" yazılı abidələrin dilində morfoloji-semantik variantlarda təqdim edilir. M.Kaşqarinin "Divani-lüğət-it türk" əsərində verilən leksik vahidlər demək olar ki, müasir dövrdə də funksionallığını saxlayır:

*Kork*-qorxmaq.
*Korkıt*-qorxutmaq. Bax: korkut-.
*Korkluk*-qorxaq.
*Korkul*-qorxulmaq.
*Korkun*-qorxu duymaq, qorxusunu gizləmək.
*Korkunç*-qorxunc.
*Korkuş*-bir-birindən qorxmaq.
*Korkut*-qorxutmaq. Bax: korkıt-.
*Korkun*-qorxu duymaq, qorxusunu gizləmək.
*Korkunç*-qorxunc.
*Korkuş*-bir-birindən qorxmaq (13, 315)

Qədim türk yazılı nümunələrində *korğ* variantında işlənir(18,43). G.Klauson "XIII əsrdən əvvəlki türk dilinin etimoloji lüğəti" əsərində göstərir ki, İslam Öncesi Türk dillərinin bəzi dialektlərində "koruk" formasına da rast gəlinir(21, 695,697).

*Qorxu* sözünün kökündə qorx/*kork* feili dayanır və feil kökünə fieldən isim düzəldən -u şəkilçisini artırmaqla yaranır.. H.Mirzəzadə bu şəkilçini "orta səviyyəli" hesab edir və göstərir ki, bütün dövrlər üçün eyni dərəcədə əhəmiyyətini saxlamışdır: *cəki, ölü, yazı, qorxu(15,62;5,219).*

Qorxu sözünün kökündəki *qor/kor* morfemi semantikası ilə diqqəti çəkir. Türk dillərində bu leksik vahidin bir necə mənası müşahidə olunur: kor/qor-maya, qatıq, pendir, qımız mayası. Onları almaq üçün işlədilən cövhər(20,114). M.Kaşğaridə *kor*-ziyan mənasında verilir: "ər kor kıldı - adam ziyan elədi"(12,130). Azərbaycan dilində bu söz ocaq söndükdən sonra külün içində qalan kiçik od parçası mənasına gəlir(1,181). Danışıq diində qorxu mənasında "canına qor dolmaq", "yerinə qor dolmaq" şəklində frazeoloji birləşmədə işlənərək qorxu, narahatlıq halını ifadə edir. "Canın qor dolmaq", "canına od düşmək" frazeoloji birləşmələri eyni semantik mahiyyət daşıyır və qorxu, təlaş hissini əks etdirir. Leksik-semantik fəallıq "od" mənasında olan "qor" sözünün üzərinə düşür. *Qor* eyni zamanda istilik mənasını da ifadə edir. İnsan qorxduqda bioloji bədənin reaksiyaları istilik hiss etmə, tər basma və sıxıntı halına düşməsidir. Bu cəhət "qor"-od sözü ilə qorxu sözü arasında semantik əlaqə yaradır, qorxu leksik vahidinin kokündə dayanması ehtimalını

söyləməyə imkan verir. Bu gün dilimizdə kok və morfemə ayrılmayan leksik vahidlər var ki, onların kok morfemlərinə "Dədə Qorqud kitabı"nın dilində rast gəlinir: *ut*-utanmaq, *al*-aldatmaq, qu-qulaq, *dan*-dansux, danlamaq(6,109). *Koru* sözünün də kökündə eyni morfem iştirak edir.

Qeyd etmək lazımdır ki, konseptin ifadə forması kimi qorxu məzmunlu frazeoloji vahidlər həm danışıq dilində, həm də ədəbi dil səviyyəsində xüsusi işləkliyə malikdir: *ürəyi sıxılmaq, soyuq tər tökmək, dili dolaşmaq, dili tutulmaq, əli ayağı dolaşmaq, əli ayağı titrəmək, ürəyi ağzına gəlmək və s.(*Az*), tüyleri diken diken olmak, kaskatı kesilmek, girecek delik aramak, gözleri yuvalarından firlamak və s.(*türk*) və s..* Frazeoloji birləşmələr qorxunun necə qəbul olunmasını, ona verilən cavab reaksiyasını özündə canlandırır.

Qorxu insan düşüncəsində müxtəlif suallar doğurur və bu sualların cəmi mövcud şəraitdə, məqamda baş verənlərin, eləcə də qorxunun səbəbini, nəticəsini anlamağa, onu necə dəf etməyə və ya bu vəziyyətdən necə çıxmağa yönəldir, qorxunun carəsi, çıxış yolu və s. axtarılır. Bu psixoloji hala uyğun olaraq sual əvəzlikləri dilin ifadə mexanizmində qorxu anlayışının ifadə vahidi kimi çıxış edir, konseptin dil faktları içərisində müşahidə edilir: *nə etmək, necə etmək, nədən olmaq və s..* Sual əvəzlikləri bu zaman bir hissin dil vahidindən əlavə, insanı təhlil və analizə yönləndirən psixoloji alətə çevrilir: qorxunun psixoloji təsirini qüvvətləndirir, dərinləşdirir:

*Hey yaranlar, hey kardaşlar nicedeyin, nideyin ben?*
*Sen benüm kulum degülsin dir olursa, nideyin ben?*
*Zelîl magbun kala başum, anda hîç dinmeye yaşum*
*Mahşer güni içüm taşum nâr olursa, nideyin ben?*
*Suç anıcak göyner özüm, kan yaşıla tolar gözüm*
*Yarın Hak katında yüzüm kar olursa, nideyin ben?*
*Fesadıla tolu içüm, hey hoca bagışla suçum*
*Key cehennem benüm içün yir olursa, nideyin ben?*
*Ben fesâd içinde kaldum, Yûnus eydür artdı derdüm*
*Sine varıcagız kabrüm dar olursa nideyin ben (4,221)*

Yunus Əmrənin yaradıcılığından seçilmiş bütöv mətndə sual əvəzliyi qorxu konseptinin maddi, zehni-fikri, emosional əsaslı ifadə forması kimi iştirak edir. Insan-tanrı münasibəti əsasında formalaşan nəfslə mücadilə, mənəvi məsuliyyət anlayışı, sevgi, kamillik yolundakı hal yaşantıları, "öz" ilə, daxili "mən"lə üzləşmə, ümumilikdə Tanrı qarşısında qorxu duyğusu *nicedeyin*- necə edeyin-necə edim; *nideyin*-nə edeyin-nə edim sual əvəzliklərinə yüklənir, hissin yaşanmasını intensivləşdirir. *"Sən mənim qulum deyilsən desə, göz yaşım dayanmasa, gözlərim qan-yaş dolarsa, qiyamət günü odda yanarsam, haq qatında üzüm qara olarsa, icim fəsadla dolu, günahkar kimi yerim cəhənnəm olarsa, fəsad içində qalıb dərdim artarsa, qəbrə qoyulduqda yerim dar olarsa* ***mən nə edərəm****"*məzmununun semantik cəhətdən qorxu hissini ifadə etməsində *nicedeyin, nideyin* vahidlərinin üslubi

funksionallığı əsas rol oynayır. Sadalanan əlamət və hadisələr içərisində qorxu yükünün ağırlıq mərkəzi bilavasitə "nə edərəm"in üzərinə düşür. XIII-XVI əsrlərdə bu üslubi xüsusiyyət bütün sənətkarların dilində az və ya çox dərəcədə özünü göstərir:

*Ey müsəlmanlar, mədəd, ol yar pünhan ayrılır,*
***Ağlamayım neyləyim**, çün gövdədən can ayrılır.*;
*Ey cigərsuz nari-firqətdən Nəsimi **çarə nə**?(8,247);*
*Dağıtma yanağın üzrə zülfün,*
***Neylər** bu günəş səhab içində*?(9, 230);

*Kopıcak rûz-ı kıyâmet*
*Ben **nideyüm neyleyeyin(4, 222);*** .

*Dil sacın arasında azar isə **nə qılam**?*
*Can başuma sevdanı yazar isə **nə qılam***?(11, 27).

Q.Bürhanəddinin dilində "etmək" feilinin qədim "qılmaq" variantından istifadə olunmuşdur. Qəzəldə aşiqin eşq əzabları və gözəl tərəfindən rədd edilə bilmə ehtimalından yaranan qorxu halı təqdim edilir: *Zarumdan əgər dilbər bizar isə, nə qılam?!; Bənüm dəlü könlümə ihkar isə, nə qılam?!*

Maraqlıdır ki, bu dövr sənətkarların şeir dilində işlək olan "nə olar" sual əvəzliyinin danışıq dilinə məxsus "nola" şəkli «nə edim»dən fərqli olaraq cəsarət, güvən kimi anıayışların ifadə vahidi olaraq işlənir və bu sual özlüyündə-daxili semantikasında qorxunu rədd və inkar edən "qoy olsun ", "hec nə olmaz" təsdiqini saxlayır: *Daş dələr ahım oxu şəhdi-ləbin şövqündən Nola zənbur evinə bənzəsə beytül həzənim (14,216); ʻIşkıla gelsen yola Yûnus'layın olsan n'ola Tâʻatini terk itmedi balık anı yutmış iken (4,220). Adəmi növ'ində mislin görmədi dövri-fələk, Şol cəhətdən gər sana xeyrül-bəşər dersəm, nola*?(9, 14).

**Qorxunun linqvotekstoloji təqdimatı**.Dünyanın dil mənzərəsini nitq vasitəsilə təqdim edən əsas format bütün dil faktlarının struktur-norma səviyyəsində, mətn daxilində dinamikliyi nəticəsində reallaşır. Anlayışların təqdimində leksik-morfoloji faktlar kimi müxtəlif cümlə tipləri və sintaktik bütövlər iştirak edir. Bəzən anlayışın nominativ ifadə vahidləri (qorxu, vəhm, dəhşət, vəzvəsə və s)iştirak etmədən cümlə və ya sintaktik bütöv konseptin ifadə vasitəsinə çevrilir. Burada leksik qrammatik faktların semantik-struktur bağlılığı ilə koqnitiv mahiyyət açılır, kodlaşmış informasiyalar təqdim edilir. Daha dəqiqi, qorxu hiss, anlayış, məzmun olaraq nitq vahidlərinin üzvi bağlılığı ilə ötürülür. Ədəbi nümunələrdə bu faktlar məzmuna uyğun olaraq dəyişir:

*Nişanım dəbrənir dəkin degildir*
*Bu gün damarlarım sakin degildir* (3,31)

Beytdəki "Damarlarım sakin deyildir" frazeolji birləşməsinin ekvivalenti "qorxuram"dır.

XIII-XVI əsrlər türk ədəbi nümunələrində qorxu konseptinin din və təsəvvüf kontekstində təqdiminə geniş yer verilir. Bu zaman qorxu konseptinin ifadə vahidləri, təkcə dünyəvi qorxu deyil, Tanrı qorxusu, Tanrı ilə əlaqə, daxili axtarış, mənəvi təkamül, məzmunlu olur. Nəsiminin *Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar Gör bu miskin aşiqi sərpa soyarlar ağrımaz* misrası haq yolundakı aşiğin inamı, imanı Zahidin can, bədən qorxusu fonunda "gerçək iman" və "saxtakar zahid" qarşılaşması ilə təqdim olunur.

Ədəbi nümunələrdə qorxu konseptinin tez-tez metaforik və simvolik vasitələrlə ifadəsi əyani təsvirlər yaradır, poetic obrazlılığı gücləndirir:

*Könüldə min qəmim vardır ki, pünhan eyləmək olmaz,*
*Bu həm bir qəm ki, el tə'nindən əfğan eyləmək olmaz.*
*Nə müşkül dərd olursa bulunur aləmdə dərmanı,*
*Nə müşkül dərd imiş eşqin ki, dərman eyləmək olmaz*. (14, 143)

Elin tənəsindən qorxduğu üçün aşiq könül qəmindən çəkdiyi fəğanı aşikar edə bilmir. Hər cür müşkül dərdə çarə tapıldığı halda eşqin dərdinə dərman tapılmır. Şüur və düşüncədə toplanan qorxu anlayışı, bir neçə qorxu tipi iki beytdə öz əksini tapır: dilə düşmək, biyabır olmaq, tənə obyekti olmaq, sevgiliyə qovuşmamaq, həsrət çəkmək. Ancaq bunları da ümumilikdə birləşdirən psixoloji məqam çarəsislik qorxusudur. Qəm, tənə, əfgan, dərd, dərman leksik vahidləri məzmunun təqdimində açar rolunu oynayır və düşüncədəki qorxunun yaratdığı emosional- ekspressiv halın çatdırılmasını təmin edir. Bu misralardakı m və n sonor səslərinin təkrarı daxili inilti halının real şəkildə duyulmasını təmin edir.

**Nəticə.** Hər bir konsept psixoloji əsasda formalaşır, verballaşaraq nitq aktına xidmət edir. Qorxu dünyanı və özünü öyrənən, qeyri-şərtsis həyat təcrübəsi keçən insanın maddi dünya, varlıq, yaradan və insanla münasibətləri əsasında müəyyənləşən psixoloji və emosional duyğu halıdır. İnsan-insan, insan-dünya, insan-tanrı münasibətləri əsasında yaranan qorxu konsepti dünyanın dil mənzərəsində geniş anlayışlar sahəsini birləşdirir. Bu anlayışlar birbaşa, nominativ halda olduğu kimi, dolayı və ya metaforik şəkildə də verballaşa bilər.

Qorxu konseptinin dil ifadə sistemində türkmənşəli leksik vahidlərə nisbətən alınma leksikanın variantları fəaldır. Konseptin nitq prosesində təqdimində konkret leksik vahidlərlə yanaşı semantik cəhətdən qorxu məzmunu daşımayan morfoloji faktlar xüsusi üslubi səciyyə daşıyır. Leksik morfoloji faktlarla yanaşı müxtəlif məna əlaqəsi ilə formalaşan sintaktik bütövlərin rolu xüsusi əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. Bakı: Şərq-Qərb. 2011, S.181.
2. АЛИШЕР НАВОИЙ МУКАММАЛ АСАРЛАР ТЎПЛАМИ Йигирма томлик Саккизинчи том ХАМСА Фарҳод ва Ширин Тошкент: Ўзбекистон Республикаси Фанлар академиясининг «Фан» нашриёти. 1991
3. Dastani-Əhməd hərami. Bakı; Şərq-Qərb 2004. 120 səh. https://achiqkitab.aztc.gov.az/az/file/view/dastani-ehmed-herami-5570354a9ef1d.pdf
4. Divani-Yunus Emre https://el-kitap.org/wp-content/uploads/2024/08/Yunus-Emre-Divani.pdf
5. Əzizxan Tanrıverdi. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 2017.
6. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. I hissə. Bakı: Elm, 2012, 476 s.
7. Hoca Ahmed Yesevi. Divan-i hikmet. Hazırlayan Dr Hayati Bice
8. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı,2004
9. İmadəddin Nəsimi. Seçilmiş əsərlərim. İki cilddə. II cild. Bakı,2004
10. Karşılaştırmalı türk lehçeleri sözlüğü. Kültür bakanlığı.Ankara 1991.s.500-501
11. Qazi Bürhanəddin. Divan. –B,;Azərnəşr, 1988, -- 656 s.
12. Mahmud Kaşğari. «Divanü lüğat-it-türk». Dörd cilddə. III cild, Bakı, "Ozan", 2006, 400 səh.
13. Mahmud Kaşğari. «Divanü lüğat-it-türk». Dörd cilddə. IV cild (indeks), Bakı, "Ozan", 2006, 752 səh .
14. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 400 səh.
15. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası: Dərslik, işlənmiş və əlavələr edilmiş 2-ci nəşri. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 1990, -376 səh.;
16. NURULLAH ALTAY’IN ÖZBEK TÜRKÇESİ SÖZLÜĞÜNÜN TÜRKİYE TÜRKÇESİNE AKTARIMI. Pamukkale Üniversitesi Sosyal Bilimler Enstitüsü Yüksek Lisans Tezi Çağdaş Türk Lehçeleri ve Edebiyatları Ana Bilim Dalı Farkhunda AİDEN Aralık 2022 .özbəkcə-türkcəlüğət.pdf
17. Reşid Rahmeti Arat. Edib Ahmed B.Mahmud Yükneki. Atebetül-Hakayik.Ankara. Türk Dil Kurumu, 2006, 419 s.(422) s. (A.H.)
18. Rəcəbli Ə.. Qədim türkcə-Azərbaycanca lüğət. Aərbaycan milli ensklapediyası nəşriyyəti. Bakı, 2001
19. Sadıqova S. Nizami poeziyasında türk düşüncə tərzinin söz qəlibi. The great Azerbaijani poet Nizami Ganjavi and eastern-western literary cultural heritage.

Article Book. December 23-24, 2021, Baku State University, Baku, Azerbaijan. Baku: Baku State University, 2022. - 394 p. s.272-281

20. Seyid Əhməd Cəmaləddin İbn Mühənna. Hilyətül-insan və həlbətül-lisan. Bakı: Kitab aləmi. 2008, - 160 s.
21. SIR GERARD CLAUSON. An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish. OXFORD AT THE CLARENDON PRESS 1972. S. 695-697. https://archive.org/details/sir-gerard-clauson-an-etymological-dictionary-of-pre-thirteenth-century-turkish-/mode/1up
22. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı: "Öndər nəşriyyat", 2004, 328 səh.;
23. Yusuf Has Hacib. Kutadğu Bilig. Günümüz Türkçesine Uyarlayan Muzaffer Tunçel Ankara-Aralık 2019
24. Yusuf Has Hacib. Kutadğu Bilig. Metin. Hazırlayan Mustafa Skaçali https://www.academia.edu/8048541/Kutadgu_Bilig_Yusuf_Has_Hacip_Orjinal_Tam_Metin

## ABSTRACT

## VERBALIZATION OF THE CONCEPT OF ‘FEAR’ IN PSYCHOLOGICAL AND LINGUISTIC LEVEL

The linguistic-psychological study of material and mental concepts reflecting the worldview, along with the means of expression of these concepts through literary examples, enables the examination of human and world concepts in mutual connection, within the unity of thought and language. This approach determines the research direction of the concept and its verbalization, creating a conceptual-linguistic-cognitive integrity. One of the concepts that reveals the essence of the human and the world on a linguistic level, formed through their mutual relations and impacting human lifestyle, is fear. The article examines the psychological foundations of the concept of fear, touching upon the extra and intra influences that shape it. The verbalization of the concept is explored in Turkic written examples, presenting the synonyms of native and borrowed lexemes, as well as textual functionality through examples. The article also provides a linguopoetic presentation of the concept of fear within the framework of linguistic facts.

**Keywords: relationship, concept, psychological foundation, linguistic facts, fear**

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 25-35*

## РЕЗЮМЕ

## ВЕРБАЛИЗАЦИЯ КОНЦЕПТА «СТРАХ» В ПСИХОЛОГИЧЕСКОМ И ЛИНГВИСТИЧЕСКОМ УРОВНЕ .

Лингвопсихологическое исследование материальных и ментальных понятий, отражающих картину мира, а также их языковых выражений в литературных образцах, позволяет изучать концепты человека и мира во взаимосвязи и в единстве мышления и языка. Такой подход определяет направление исследования концепта и его вербализации, создавая концептуально-лингвистически-когнитивное единство. Одним из понятий, раскрывающих сущность человека и мира в языковой плоскости, формирующимся из их взаимных отношений и влияющим на образ жизни человека, является страх. В статье рассматривается психологическая основа понятия страха, а также затрагиваются внешние и внутренние влияния, формирующие его. Вербализация концепта исследуется на примере тюркских письменных образцов, на основе примеров представлен синонимический ряд лексем национального и заимствованного происхождения, функциональность текста. В статье также освещается лингвопоэтическое представление концепта страха в контексте языковых фактов.

**Ключевые слова: отношение, концепт, психологическая основа, лингвистические факты, страх**

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: professor Mətanət Abdullayeva tərəfindən çapa tövsiyə olunmuşdur**